


**Qiymətli kağızlar bazarının infrastruktur təşkilatı kimi MDM xarici depozitarlarla təmas yaradaraq beynəlxalq əlaqələrin inkişafına xüsusi diqqət yetirir. Bu məqsədlə MDM bir sıra xarici həmkarları ilə işgüzar əlaqələr yaratmış, qarşılıqlı fəaliyyət üçün zəminlər müəyyən etmişdir.**

**Azərbaycan qiymətli kağızlarının beynəlxalq bazarlara çıxışını təmin etmək məqsədilə 2006-cı ildən MDM Milli Nömrələyici Agentliklər Assosiyasiyası (ANNA) ilə qlobal əməkdaşlığa dair müqavilə imzalamış və Azərbaycan üzrə Milli Nömrələyici Agentlik olaraq səlahiyyətləndirilmişdir. Bu status müqabilində MDM Azərbaycanda emissiya edilən qiymətli kağızlara ISIN beynəlxalq eyniləşdirmə kodları verməyə başlamışdır.**

**Azərbaycan Respublikasının**
**Milli Depozit Mərkəzi**

Bakı ş., Babək pros. 12 A, Babək plaza, blok C, 9-cu mərtəbə www.mdm.az
e-mail: office@mdm.gov.az

# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ DEPOZİT MƏRKƏZİ



Azərbaycan fond bazarının infrastrukturunda mərkəzi mövqedə olan Milli Depozit Mərkəzi qiymətli kağızların saxlanmasını, onlar üzərində mülkiyyət hüquqların qeydiyyatını və qiymətli kağızlar üzrə ticarətdən sonrakı hesablaşmaları həyata keçirir.

- **Mərkəzi Depozitar**
- **Mərkəzi Reyestrsaxlayıcı**
- **Kliriŋq təşkilatı**
- **Milli Nömrələyici Agentlik**

***Milli Depozit Mərkəzi tərəfindən göstərilən xidmətlər müvafiq müqavilə ilə tənzimlənir.***

***Qiymətli kağızların saxlanması və qiymətli kağız mülkiyyətçilərinin reyestrinin aparılması üzrə xidmətlərinin göstərilməsi barədə müqavilə bağlamaq üçün tələb olunan sənədlər:***

- Müraciət məktubu;
- Emitentin nizamnaməsinin notarial qaydada təsdiq edilmiş surəti;
- Hüquqi şəxs kimi dövlət qeydiyyatına alınması haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti;
- Emitentin digər təsis sənədlərinin surəti (təsis müqaviləsinin və s. surəti);
- İcra orqanının rəhbər şəxsinin vəzifəyə təyin olunması barədə sənədin surəti;
- Emitentin qiymətli kağızlarının emissiya prospektinin surəti (qiymətli kağızların emissiyası emissiya prospekt ilə müşayiət olunursa) və ya qiymətli kağızların emissiyası haqqında qərar;
- Qiymətli kağızların dövlət qeydiyyatına alınması barədə sənədin surəti (QKDK-nın şəhadətnaməsi və ya MBNP-nın çıxarışı);
- Vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;
- Emitentin bank rekvizitləri haqqında arayış;
- Qiymətli kağız mülkiyyətçiləri və onların sahib olduqları qiymətli kağızların miqdarı haqqında sənədin surəti (MMC-də ehtiyac yoxdur) ;
- Rəhbər şəxsin şəxsiyyət vəsiqəsinin surəti;
- Müvafiq Anket (Forma №2) .

Qiymətli kağız mülkiyyətçilərinin hesabı yoxdursa, hesab açılışı üçün tələb olunan sənədlər.

***Qiymətli kağız mülkiyyətçilərinə hesab açılması üçün tələb olunan sənədlər:***

*Fiziki şəxslər üçün:*

- Hesabın açılması barədə ərizə;
- Anket (Forma №1);
- Şəxsiyyəti təsdiq edən sənədin surəti.

*Hüquqi şəxslər üçün:*

- Hesabın açılması barədə ərizə;
- Anket (Forma №2);
- Hüquqi şəxsin nizamnaməsinin notarial qaydada təsdiq edilmiş surəti;
- Hüquqi şəxs kimi dövlət qeydiyyatına alınması haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti;
- Hüquqi şəxsin qanuni təmsilçisinin təyin olunması barədə sənədin surəti;
- Vergi ödəyicisinin eyniləşdirmə nömrəsinin surəti;
- Bank rekvizitləri haqqında arayış;
- Rəhbər şəxsin şəxsiyyət vəsiqəsinin surəti.



***Qiymətli kağızlarla konvertasiya, xırdalanma (split) və birləşdirmə (konsolidasiya) əməliyyatlarının aparılması üçün tələb olunan sənədlər:***

- Müraciət məktubu;
- Əməliyyatın həyata keçirilməsi haqqında emitentin qərarı və ya onun təsdiq olunmuş surəti (protokolun surəti);
- Emissiya prospektinin surəti (olduqda);
- Buraxılışın dövlət qeydiyyatına alınması haqqında sənədin surəti (QKDK-nın çıxarışı);
- Səhmlərin nominal dəyərinin bölüşdürülməmiş mənfəətin hesabına artırılması zamanı – başa çatmış son maliyyə ili üzrə illik balansın və onun yoxlanılması haqqında auditor rəyinin təsdiq olunmuş surəti;
- Səhmlərin nominal dəyərinin səhmdarlar tərəfindən edilən ödənişlər hesabına artırılması zamanı – ödəniş sənədlərinin əsli
- Qiymətli kağız sahiblərinin reyestrində dəyişikliklər olduqda, onları təsdiq edən sənədlər.

